**Coşqun Dadaş oğlu DADAŞOV**
Azərbaycan Dillər Universiteti
Xarici ölkələr ədəbiyyatı kafedrası, doktorant
E-mail: Dadasov94@mail.ru

# M.MURKOKUN YARADICILIĞINDA İKİLİ REALLIQ VƏ ZAMANA SƏYAHƏT

**Xülasə**

Möcüzə, sehr və tilsim adi, gündəlik həyatdan çox uzaqda, sirli mühitdə yerləşdiyi halda, ingilis yazıçısı M.Murkok möcüzəni gündəlik həyatın ortasına yerləşdirir, bu baxımdan onun möcüzəsi daha sirli görünür. Gerçəklə təxəyyülün bir-birinə nüfuz etməsi M.Murkokun romanlarında xüsusi bir effekt yaradır, həyatın ümumi axarına qoşulur. Magik realizmin əsas xüsusiyyətlərindən biri ikili dünyanın və ya ikili reallığın olmasıdır. M.Murkokun magik realizmlə bağlı əsərlərində də zaman anlayışı özünəməxsus şəkildə təsvir edilir, zaman sanki yoxa çıxır və ya müvəqqəti sərhədlərini itirir. Əsərin qəhrəmanları zamanı asanlıqla keçə bilir. Belə əsərlərdə gerçək dünyanın bütün qanunları pozulur, mifoloji zaman gerçək tarixə dönür və daima təkrarlanır. Elə bu səbəbdən görmək olur ki, M.Murkokun magik realizmə əsaslanan bir çox əsərləri öz qanunları ilə yaşayır, gerçəkdə olmayan və ağlasığmaz hadisələr işığında açılır.

**Açar sözlər:** M.Murkok, "Qraf Brass", ikili reallıq, roman

**UOT:**80
**DOI:** https://doi.org/ 10.54414/PVDG4036

## Giriş

Müasir ingilis yazıçısı Maykl Murkok (Michael Moorcock, 1939) magik realizm janrında yazan, magik realizm və fentezidə ardıcıl eksperimentlər aparan romançıdır. Məlumdur ki, magik realizmdə yazıçılar gerçəkliyi olduğu kimi qəbul edir, yalnız ənənəvi realizmdən fərqli olaraq, bu reallığı möcüzə və sirrin, mifin köməyi ilə əks edirlər. Başqa sözlə, gerçək dünya ilə xəyal aləmini bir araya gətirir, qeyri-adi hadisələri təfərrüatı ilə, gerçək hadisə kimi təsvir edirlər.

Qeyd edilməlidir ki, magik realizmlə bağlı əsərlər nağıllar aləmi deyil, ingilis tədqiqatçısı M.Bauersə görə o daha çox "sirli, sehrli macəra və sərgüzəştlərin bir araya gəldiyi adi dünyadır" [4, s.24]. Magik realizm insanla dünyanın, ideალla real aləmin, mifik dünya ilə reallıq arasındakı ziddiyyətləri təsvir etməklə yanaşı müəllif miflərini əsaslandırmaq istəyir. Ədəbi tənqiddə magik realizmlə bağlı bəzi fikirlər də vardır ki, onları qeyd etmək istərdik. V.Vilyarreal ingilis ədəbiyyatını magik realizmə xas xüsusiyyətlərlə təhlil edir və belə bir qənaətə gəlir ki, bu ədəbi nümunələrdə magiya və mif bir arada gerçəkliyə şübhə ilə yanaşır, məntiq qanunlarını saymır: "Gerçək ilə təxəyyül arasındakı sərhəd daha çox itirdiklərimizi yenidən yarada biləcəyimiz bir məkandır" [8, s.94]. L.Samora və V.Feris isə "Magik realizm: nəzəriyyə, tarix, icma" əsərində yazır ki, magik realizm "müxtəlif dünyaları və ya reallıqları birləşdirir, zaman, məkan və insan haqqında adi fikirləri dağıdır"[9, s.102].

Magik realizmin əsas xüsusiyyətlərindən biri də ikili dünyanın və ya ikili reallığın olmasıdır. Bu reallıqlar hər iki dünyanı əks etdirən ikili reallığın kəsişmə nöqtəsində mövcuddurlar. Möcüzə və sirli dünya realizmi burada şübhə altına alır və əsərin uydurma olmasını irəli sürür. Amma baş verənlər gerçək dünya ilə əlaqəli olduğundan əsər realizmin də xüsusiyyətlərini əks edir. Hər iki vacib prinsip magik realizmin ikili xarakterini irəli sürür. G.Əliyeva belə hesab edir ki, magik realizm "gerçəkliyin və uydurmanın, adiliyin və ecazkarlığın" birliyidir [2, s.48].

Digər tərəfdən magik realizm zaman və məkan haqqında adət etdiyimiz təsəvvürləri də yox edir. Borxesin əsərlərində zaman indi, keçmiş və gələcək müstəvisində "gəzir", Markesin romanlarında isə zaman anlayışı yoxa çıxır.

M.Murkokuk "Melniboneden olan Elrik" romanında qəhrəman keçmişi ilə, artıq həyatda olmayan ailəsi ilə əlaqə qurur. Ünsiyyətdə olduğu insanlarla eyni zamanda danışır, onlara öz fikirlərini ötürür. Onda belə bir sual yaranır ki, Elrik gerçək insandırmı? O, keçmişə səyahət edir, gerçək dünyaya qayıdır və istədiyi vaxt gələcəyə keçə bilir. Onun kimliyi ilə bağlı suallar yaranır. Yazıçı bu salların cavabını Elrikin səyahət etdiyi ikili reallıqda göstərir.

**Əsas hissə**

Qədim zamanlarda problemlərin qeyri-adi, magik həllini insanı müşayiət edən mərasimlərdə, mifik varlıqlar haqqında hekayələrdə görürük. Magik realizmin kökləri məhz reallıqda ağla gəlməyən, inanılmaz magik gücə olan inamda gizlənir. Onu əsas xüsusiyyəti də elə adi ilə qeyri-adini, gerçəklə uydurma dünyaları, başqa sözlə, iki dünyanın bir məkanda birləşməsidir. Burada magiya gündəlik hadisələrlə, gündəlik həyat isə mistik hadisələrlə bir arada çıxış edir.

M.Murkokun "Bütün mahnıların sonu" romanında gerçək dünya mifik dünya ilə bir arada əsərin bədii dünyasını açır. Yuxu və reallıq, gerçəklə təxəyyül, magiya ilə elmi nailiyyətlər əsərdə paralel şəkildə iştirak edir. Gələcəyin sakini olan Cerri Kornelius keçmişi xatirə kimi danışır, yeni postinsan erasını acı gerçəklik kimi dərk edir. Axır zamanda, dünyanın sonunda yaşayan Cerri süni zəka ilə idarə olan robotlar dünyasının sakinidir. Burada cildini dəyişən canlılar, zamana səyahət edən sehrbazlar, keçmişi bu günə və gələcəyə keçirə bilən "üst qüvvələr" yaşayır. Onlar ziyafət, toy-bayram içindədirlər, amma bununla belə real insana xas çətinliklər adi bir hal kimi onları da izləyir.

Magik realizmdə zaman anlayışı özünəməxsus şəkildə təsvir edilir. Belə əsərlərdə sanki zaman yoxa çıxır və ya müvəqqəti sərhədlərini itirir. Əsər qəhrəmanları zamanı asanlıqla keçə bilir, gerçək dünyanın bütün qanunları pozulur, mifoloji zaman gerçək tarixə dönür və daima təkrarlanır. Beləliklə, "Bütün mahnıların sonu" romanının qəhrəmanı keçmiş əsrlərə səyahət edir, hər əsrə uyğun davranır. Zaman onun üçün sanki dayanır və ona uyğun hərəkət edir.

R.Peres və V.Şevalye magik realizmdə yazılan əsərlərin bədii aləmini təhlil edir və belə qənaətə gəlir ki, onun tərkib hissəsi ikili reallıq, real və qeyri-adi personajların, hadisələrin mövcudluğudur. Tənqidçilərə görə belə əsərlərdə reallıq möcüzə ilə bir arada çıxış edir, zamanla oyun və ən əsası keçmişlə gələcək arasında aydın sərhədlər görünmür [7, s.18]. "Qılınclar trilogiyasında" şahzadə Korum zamanı keçə bilir, bəzən onunla bağlı hadisələrdə zaman donur, bəzən isə daha sürətlə dövr edir. Onunla bağlı eyni hadisə müxtəlif zamanlarda təkrarlanır, lakin hər dəfə fərqli insanlarla eyni hadisəni yaşayır. O, Xaos hökmdarı Ariohla döyüşü zamanı müxtəlif reallıqlara "atılır". Zamana səyahət elə təsvir edilir ki, oxucu heç nədən şübhələnmir, onu gerçəklik kimi qəbul edir.

M.Murkokun "Dorian Hokmun" romanlar silsiləsində də zaman ikili xarakter daşıyır. İkililik onun mifoloji zamanla tarixi zamanı bir arada təcəssüm etməsindədir. Dorian Hokmun müasir dünyanın insanıdır, amma onunla bağlı hadisələr mifik dünyada baş verir, insana bənzər məxluqlarla, əcinnələrlə bir arada döyüşür, şər qüvvələrini yer üzündən silməyə çalışır.

Qeyd etmək yerinə düşər ki, magik realizmdə zaman və məkanın tipik olmayan strukturu aparıcı rola malikdir. Düzxətli zamandan imtina və mifoloji zamanın daima təkrarlanması və qapalı dairənin yaradılması, müvəqqəti dəyişikliklər ənənəvi tarixi zaman anlayışını yox edir. Zaman və məkan artıq mövcud olmayanları bir araya gətirir, ölülər və dirilər eyni zamanda, bir dünyada yaşayır. Reallıq üçün şərait yaradan, amma zamanın başqa ölçüləri ilə ölçülən bir mifoloji zamana keçir.

M.Murkokun "Qraf Brass" romanında gündəlik təfərrüatlarla bol olan real süjet xətti magik elementə çevrilən zamana səyahətlə başlayır. Romanda müxtəlif zamanlar bir arada çıxış edir. Çoxdan dünyadan köçmüş qraf Brassın dünyası ilə onun yerinə keçən şahzadə Dorian Hokmun dünyası ikili reallıq yaradır: "Kamarq torpaqlarının əvvəlki gözəlliyi bərpa etmək, onun bataqlıqlarını qırmızı flaminqolarla, düzənliklərini isə vəhşi buğalar və buynuzlu heyvanlarla doldurmaq üçün ən azı beş il lazım oldu. Beş il ərzində Dorian Houkmun sərhəddə gözətçi qüllələrini yaratdı, şəhəri xarabalıqdan çıxartdı və Brass qalasını bütün əzəməti ilə bərpa etdi.

Qraf Brass Xaos hökmdarı ilə mübarizədə qəhrəmancasına həlak oldu. Ancaq bu, beş il əvvəl idi və o vaxtdan bəri çox şey dəyişdi. Qızı İsselda Brass Dorian Hokmunla evləndi, iki uşaq dünyaya gətirdi. Dorian Houkmun onları dəlicəsinə sevirdi" [6, s.3].

Lakin gerçək dünyanın harmoniyasını ölülər dünyasından gələn xəbər pozur. Qraf Brassın xəyanətə məruz qaldığı və ən yaxın silahdaşı tərəfindən öldürülməsi xəbəri tezliklə bütün Kamarq torpaqlarına yayılır. Hər kəs bu xəbərin qraf Brassın özü tərəfindən yayılmasını düşünür: "Əlini Houkmun tərəfə tutaraq, qışqırdı:

- Amma mən başqa bir şey bilirəm. Mən qraf Brassın qatilini tanıyıram! Qorxaq! İkiüzlü! Yalançı!

Bu cəfəngiyat Houkmunu silkələdi. Bu qoca nə danışır?!

Bir neçə qulluqçu onun üstünə atıldı, qollarını sıxaraq meydandan çıxarmağa çalışdı, lakin o, bütün gücü ilə:

- Həqiqəti belə susdurmaq istəyirlər! - qışqırdı. – Məni kim ittiham edir!?

Bu yalnız onu fikri olsaydı Houkmun susardı. Amma son vaxtlar hər kəsin demək istədiyini o, ilk dəfə səsləndirirdi"[6, s.5].

M.Murkokun bədii aləmində zamanın spesifik xüsusiyyətləri qəhrəman üçün yeni reallıq açır, bu isə öz növbəsində magik realizmə xas reallığın göstəricisidir. Müxtəlif məkanlar (döyüş meydanı, bataqlıq və s.), eləcə də artıq həyatda olmayanlarla (Qraf Brass, ruhlar aləmi) ünsiyyət magik realizmin tərkib hissəsi kimi üzə çıxır. Dorian Houkmun və qraf Brass bu reallığa öz dünyasından baxır. Onların görüşü magik realizmin qavrayış tərzinə uyğun həyata keçir. Bu dünya öz daxilində sirlərlə bərabər gerçək dünyanı da birləşdirir.

Bu əsərdə zaman düzxətli deyil və qəhrəmanlar onun içində müxtəlif istiqamətlərdə sərbəst hərəkət edir. Dorian Houkmun zamanı geriyə çevirməklə, zamana səyahət etməklə paralel dünyaların həqiqiliyi haqqında düşünür və onun illüziya olmadığını dərk edir. M.Murkok qəhrəmanlarını fərqində olmadığı əbədi və daima təkrarlanan zamana salır. Mifoloji və tarixi zamanın – hər ikisinin kəsişdiyi reallığı göstərir.

Qraf Brassın qətlində mühakimə olunan Dorian Houkmun irəli sürülən ittihamları qəbul etmir: "- Bunu sənə kim dedi?

- Öldürdüyün! – qoca nəhayət qışqırdı. - Xəyanət etdiyin!

- Ölü dedi? Mən kimə xəyanət etdim?

- Hamının sevdiyi insana! Mən ona əbədi olaraq sadiq qalacam!

- Qraf Brassdan danışırsan? – Dorian soruşdu. Bəs bunu haradan eşitdin?

- Şəhər ətrafındakı bataqlıqda. Gecə. Mənimlə bərabər paytaxta qayıdanlar da eyni şeyi eşitdilər.

- Kimdən?

- Özündən! Qraf Brassın özündən!"[6, s.12].

Romanın qəhrəmanı zamana səyahət edir, döyüş meydanına qayıdır və hadisələrə başqa gözlə baxır. Məsələnin nə qədər ciddi olduğunu dərk edir. Qraf sayəsində insanların başqa zamanda, daima təkrarlanan və yenidən yaşamaq fürsətini əldə etdiyi zamanda əbədi mövcudluğunu görür. Beləliklə, ölülər çoxdan tərk etdikləri dünyaya gəlirlər. Magik realizmdə yazılan əsərlərdə olduğu kimi, ölüm son xarakterini itirdiyi üçün "dirilərə" və "ölülərə" deyil, buradakılara və oradakılara bölünür. Amma bütün hallarda hər iki dünyanın sakinləri ikili reallıqda yaşayır, Dorian gerçək dünyanın insanı olsa da paralel dünyaya da keçə bilir. Qraf Brass isə əbədi dünyanın sakini kimi "dirilər" dünyasına qayıdır. O biri dünyadan qayıdanda hər kəsin ölümündən xəbərdar olduğunu başa düşür. İndi Dorian qızı ilə evlidir və Kamarqı idarə edir. O, başa düşür ki, əslində çoxdan vəfat edib və zamana "səpələnib". Zamana "səpələnən" qraf "ol zamanlardan" gəlib. Magik realizm elə bu "ol zamanları" gerçək dünya ilə birləşdirir. Kamal Abdulla yazır ki, "Ol zamanlar" və "indiki zamanlar" bölgüsü ciddi məsələdir. Ayrılma ən profan ölçüdən ən sakral ölçüyə qədərdir. Profan səviyyədə: ol zamanlar gözlər daha tox idi və sakral səviyyədə: ol zamanlar göylər daha yaxın idi" [1]. Bu ikili reallıq və müxtəlif dünyalar M.Murkok yaradıcılığının əsas mövzularındandır: "Qraf Brass tərəddüd edənlərdən deyil. O, söz yollamaz, özü gələrdi. Amma ki, kabusların da öz adətləri var, - dedi və güldü.

- Deməli, siz hələ də bu nağıla inanırsınız?

- Mən heç nəyə inanmıram və amma hər şeyə inanıram. Həyat mənə bunu öyrədib" [6, s.17].

M.Murkok yaradıcılığının ana xətti olan Paralel Dünyalar və ya Mültidünya məsələləri bu

əsərdə özünü açıq şəkildə büruzə verir. M.Murkok göstərir ki, insan həyatı üçün müxtəlif zaman anlayışı var. Bu zamanlarda nəyin həyata keçəcəyini insan qərar verə bilmir. Taleyi dəyişmək olmur, amma paralel zamanlarda tale özü istədiyi kimi dəyişir.

"- Qraf Brass mənə hansı xəbəri yolladı?

- Hər gecə səni bataqlıqda gözləyəcək. O, qisas almağa gəlib.

Hokmun dərindən nəfəs aldı və kəmərindəki qılıncını düzəltdi.

- Belə olan halda bu axşam ora gedəcəm" [6, s.19].

Qraf Brass "dirilər" dünyasına qayıdır, "ol zamanlardan" gəlir. Bu məsələ yazıçının bir neçə əsərində reallaşır, lakin "Qraf Brass" romanında başqa forma alan zamanın təkrarlanması ideyası fərqli şəkildə təqdim edilir. Həmçinin M.Eliadenin əbədi qayıdış ideyasını reallaşdırır [3, s.102]. Qrafın "ol zamanlardan" geri dönməsi zamanı geri qaytarmağa şərait yaradır. Elə bu səbəbdən Dorian Houkmun onun "dirilməsinə" inanmır, çünki onun yaşadığı dünya ilə qrafın məskunlaşdığı dünya fərqli zamanlarda dövr edir. "Tünd qızılı gözlər sərt göründü. Qalın qırmızı bığ və qırmızı qaşlar ərinmiş metaldan tökülmüşdü. Bəli, o idi, başqa heç kim!

"Qraf Brass", - Houkmun dərindən nəfəs aldı, sonra ona daha diqqətlə baxdı, çünki əsl qraf Brassın döyüş meydanında necə öldüyünü dəqiq xatırlayırdı.

Bu adam tanıdığı adamdan bir qədər fərqli idi. Bu qraf Brass onun yeddi-səkkiz il əvvəl Kamarqda tanış olduğu adamdan ən azı iyirmi yaş kiçik idi.

Qraf ağır göz qapaqlarını qaldırdı və sərt baxışlarını ona dikərək dedi:

-Gözlədiyim sənsən? Mənim alın yazım.

- Alın yazın? - Houkmun istehzayla güldü.

Səs şübhəsiz ki, mərhum qrafa məxsus idi, lakin indiki qraf Brassın gözləri səmimiyyətini itirmişdi, daha çox o dünyanı xatırladırdı.

- Sən kimsən? Səni Kamarqa nə gətirib?

- Mənim ölümüm. Mən ölməmişəm?

- Mənim tanıdığım qraf Brass öldü. Beş il əvvəl döyüş meydanında öldü"[6, s.28].

Dorian Houkmunu isə başqa sual maraqlandırır. Əgər qraf Brass heç nəyi xatırlamırsa, onda əbədi həyatın mənası varmı: "Qraf Brass niyə belə gənc görünür? Niyə bir qızı olduğunu heç xatırlamır?

- İnanmırsan... Amma heç görüşməmişik...

- Necə görüşməmişik? Dəfələrlə çiyin-çiyinə döyüşüb bir-birimizin həyatını xilas etmişik.

- Yox, amma tam əminəm ki, mən qraf Brassam. Buna görə də diqqətli ol, Dorian Houkmun!

- Bəs sizin əminliyiniz nəyə əsaslanır? Qraf Brassa oxşayırsız, ona görə?

-Xeyr, çünki mən qrafam, - deyə kabus qışqırdı. - Ölü və ya diri, mən qraf Brassam.

- Bəs necə ola bilər ki, sən məni tanımırsan və qızının varlığını unutmusan, Kamarq torpağını başqa bir dünya krallığı ilə səhv salırsan, xalqa göstərdiyin xidmətlərin haqqında heç nə xatırlamırsan" [6, s.46].

Onda belə çıxır ki, zaman daima dairəvi hərəkətdədir və varoluşun həqiqiliyi illüziyadır. Zamanın dairəvi hərəkəti əbədi təkrar ideyasını irəli çəkir və M.Murkokun romanında bu ideya reallaşır. Təkrarlanan zamanda hər bir hadisə eyni vaxtda sonun başlanğıcı rolunu oynaya bilər, lakin bu təkrarlar heç bir yerə aparmır, onların xəyali hərəkətində heç bir məqsəd yoxdur. İnsan varlığı bu zaman təkcə gerçəklikdən deyil, həm də hər hansı bir mənadan məhrum olur. M.Eliade tam doğru olaraq yazır ki, "sakral, mifoloji zaman hüdudsuzdur və onu əbədiyyətlə müqayisə etmək olar. Ona yalnız mifi təkrarlamaqla, düzxətli və profan zamanla "daxil olmaq" mümkündür"[3, s.186]. M.Murkok M.Eliadenin qeyd etdiyi mifoloji zamanı düzxətli zamana daxil edir, elə bu səbəbdən onun qəhrəmanları biri-birini başa düşmür, müxtəlif zamanların insanları kimi davranırlar.

Bu əsərdə sehrli dünyaya aid hadisələr baş vermir. Qəhrəman heç bir dünyaya keçmir, o, əvvəl qrafla, sonra isə dostları ilə bataqlıqda görüşür. Onların ölümləri ilə bağlı tarixçəni dinləyir, nədən dostlarının cəfəngiyat danışdığını başa düşmür. Doriana elə gəlir ki, onlar hansısa tamaşanı oynayan yaxşı aktyorlardı. Dostlarından biri zəhərlənib öldüyünü, digəri yağışlı gün sevgilisinin evindən qaçarkən sətəlcəm olub öldüyünü, üçüncüsü isə vəbadan öldüyünü deyir. Qraf Brass isə qayalıqdan yıxılmasından və vəhşi ayı tərəfindən parçalanmasından bəhs edir. Ona elə

gəlir ki, yaxşı qurulmuş tamaşaya baxır: "Onlar rol üzərində işləyən aktyora çox bənzəyirdilər. Əgər intonasiyaları, jestləri və davranış tərzləri olmasaydı aktyor olduqlarına inanardı. Kiçik fərqlər var idi, lakin Houkmun dəqiq bilirdi ki qarşısında dostları dayanıb. Lakin onlar bir-birini tanımırdı" [6, s.48].

Dorian Houkmun indi ilə əlaqəni itirir, xatırlamadığı keçmişi yenidən yaşamağa başlayır, lakin zamanın başqa şəkildə yenidən təkrarlanmasını sona qədər başa düşmür. Yalnız qraf Brassın təklifindən sonra dostlarının paralel dünyalardan gəldiyini və müxtəlif zamanlarda ölüb-dirildiyini dərk edir: "Sən bizim dördümüzü də tanıyırsan, amma biz səni tanımırıq. Deyəsən axirətə yalnız dördümüz göndərilmişik, amma mən belə təsadüflərə inanmıram. Bizim hər birimizə eyni hekayəni deyiblər: gələcəkdə bizə xəyanət edəcəksən. Bütün bunları nəzərə alaraq belə qənaətə gəlirəm ki, gələcəkdə nə vaxtsa biz hamımız görüşüb dost olacağıq"[6, s.97].

M.Eliadeyə görə mifdə insan "ol zamana" daxil olur və tarixi-empirik zamana təsir edir. Mifdəki zaman geriyə çevrilə bilər, çünki profan zaman düzxətlidir, lakin sakral zaman silsiləvidir və elə bu səbəbdən "ol zamanlar"a aiddir. İnsan məhz bu "ol zamanlara" mifoloji düşüncəylə keçə bilir. Bu iki zaman arasında keçilməz sərhəd olmasa da, keçid yollar və bələdçilər var [3, s.176].

Tale bir neçə zamanlarda yaşayan Dorian Houkmunu dəyişmir. O, bütün zamanlarda qəhrəman, şərə qarşı vuruşan Əbədi Döyüşçüdür. O, hər dəfə təkrar yaşayır, müxtəlif zamanlara səyahət edir, bu zamanlarda yaddaşını itirsə də bütün insani keyfiyyətlərini qoruyub saxlayır. "Əbədi qayıdış" ideyasını əsərin bütün qəhrəmanları yaşayır, keçmişi xatırlayır, lakin müxtəlif keçmişlərdə yaşayan dostlar indiki zamanda bir araya gələ bilmir.

Bu, "yaddaşsızlıq" onları tanımadığı dünyada özlərini tapmağa kömək edir. Dörd dost keçmiş həyatlarında adi insan həyatını yaşasalar da, gələcəkdə torpaqları uğrunda döyüşən və onun yolunda ölən qəhrəmana çevrilirlər. "Əbədi qayıdış" anlayışı bu halda mükafata dönür. Əgər Markesin "Yüz ilin tənhalığı"nda əbədi və daima təkrarlanan zaman qəhrəmanların cəzasına çevrilirsə, M.Murkokun qəhrəmanları təkrar həyatlarında "mükafatlanır", döyüşür və qəhrəmancasına ölürlər:

"- Bilirsiz, bizim bilmədiyimiz başqa zaman ölçüləri də var, - deyə Houkmun davam etdi. Görünür, bu zamanlarda yaşayan insanla eyni olan insanlar da var. Biz axı, Kamarqı tapdıq. Ola bilsin ki, bu elə bizim cavabımızdı. Amma müxtəlif zamanlarda yaşayanlar üçün cavab qeyri-müəyyən qalacaq"[6, s.99].

Əbədi təkrarın sirrini bilən Dorian Houkmun nəhayət hüzur tapır, ona əzab verən suallardan qurtulur. Əbədi qayıdışın əzabını çəkən dostları isə onu tam dərk edə bilmirlər. Elə bu səbəbdən kim olduqlarını, nədən yenidən həyata qayıtdıqlarını və bataqlıqda yaşadıqlarını başa düşmürlər. Onların həyatında bəzi hadisələr təkrarlanır, lakin bu hadisələrin nədən baş verdiyini müəyyən edə bilmirlər.

"- Hamınız səhv edirsiniz, - dedi Houkmun. Biz bu təpədə birlikdə qələbə çaldıq. Amma indi, sizin hamınız üçün Xaos hökm sürür, onun hökmdarı hər şeyi idarə edir. Amma mənim üçün Şərin dövranı çoxdan başa çatıb, ilk növbədə beşimizin sayəsində yox olub. Beşimiz təxminən altı il əvvəl tanış olduq, şübhəsiz ki, Xeyrə xidmət etdik və Şərlə döyüşdük. Bizə həvalə edilmiş işi yerinə yetirə bildik, lakin qələbəni yaxınlaşdırmaq üçün siz dördünüz də həlak oldunuz"[6, s.102].

Magik realizmdə zamana səyahət qəhrəmanları heyrətləndirmir, çünki bir zamandan digərinə keçid fantastikadan fərqli olaraq magik realizmdə dünyanın təbii qanunlarına müdaxilə kimi görünmür: "Belə olan halda, deyək ki, zaman yəqin ki, bizim düşündüyümüz kimi deyil", - dedi qraf Brass. - Axı, aydın görünür, biz müxtəlif illərdən gəlmişik, amma indi bir yerdəyik. İstər keçmişdən, istərsə də gələcəkdən asılı olmayaraq, fərqli zamanlardan gəldiyimiz aydındır"[6, s.102].. İngilis tədqiqatçısı A.Çanadinin də qeyd etdiyi kimi "fantastikada qeyri-adi qəhrəmanlar gerçək olmayan dünyada yaşayır, magik realizmdə isə qəhrəmanın yaşadığı dünya kifayət qədər realdır. Yalnız hər kəsin adi qəbul etdiyi hadisələr möcüzə kimi görünür" [5, s.36]. Dorian Houkmunun da dünyasında adi insanlar, adi hadisələr baş verir. Məhz bu səbəbdən o, dünyadan köçmüş qraf Brassın görüşünə gedir, nəyinki onu, hətta

onunla bir gündə həlak olan dostlarını görür, onlarla danışır. Tədqiqatçının da qeyd etdiyi kimi Dorian Hokmunun "adi qəbul etdiyi hadisə möcüzə kimi görünür"[5, s.37].

Düzdür, Dorian Houkmun keçmişdən gələn dostlarını görəndə təəccüblənir. Onun təəccübü müxtəlif zamanların varlığı ilə bağlı deyil, hadisələrin nə üçün onunla əlaqəli olmasındadır. M.Murkokun əsərində qeyri-adi görünən sadəcə reallığın bir hissəsidir. Dorian Hokmun da dostları ilə görüşdüyü gün keçmiş zamanın varlığına inanmır, lakin tədricən paralel dünyaların gerçək olmasını dərk edir. Başqa sözlə, magik realizmdə qeyri-adi görünən hadisələr ən adi hadisə kimi təsvir edilir.

M.Eliade yazır ki, sakral zaman, dövr edən zaman Böyük Zamandır. Mifoloji Zaman istənilən tarixi zaman kəsiyini illüziyaya çevirir. Daima təkrarlanan zamanda doğulan və yoxa çıxan formalar isə real deyil [3].

**Nəticə**

M.Eliadenin də fikirlərini nəzər alaraq qeyd etməliyik ki, ikili reallığın mövcudluğu onların bir-birinə nüfuz etməsi və birgə mövcudluğunu şərtləndirir. M.Murkok əsərə qeyri-adi motivləri daxil etməklə adi görünən hadisələrə möcüzə, sirr effekti verir. Gerçək və qeyri-adi arasında sərhədlərin silinməsi magik və sirli hadisələrin yaranmasına yol açır. Magik realizmdə zaman subyektiv və şərtidir və bu şəkildə dünyanın rasional dərk edilməsini şərtləndirir.

"Qraf Brass" romanında qəhrəman reallığa müəyyən baxış bucağından – mifoloji, mistik və real baxış bucağından baxır. Digər tərəfdən müəllif zamanın subyektivliyini və nisbiliyini açmaq üçün onu magik realizmin xüsusiyyətləriylə göstərir. Nəhayət, magik realizmdə ikili reallığın mövcudluğu gerçəyi silsiləvi, çoxölçülü ilkin zamanda, real tarixi zamanı isə uydurulmuş dünyada, həyat üçün bütün mənasını itirən mifik dünyada göstərir. Elə bu səbəbdən magik realizmlə bağlı əsərlər öz qanunları ilə yaşayır, gerçəkdə olmayan və ağlasığmaz hadisələr işığında açılırlar.

**Ədəbiyyat:**

1. Abdulla, K. Ol zamanlar. Əvvəl-axır yazılanlar // Ədəbiyyat qəzeti. –26 noyabr, –2018.
2. Əliyeva, G. Bədii ədəbiyyatda magik realizmin yaranma səbəbləri və təşəkkülü // Elmi Xəbərlər, № 3, –2019, – s.45-51.
3. Элиаде, М. Миф и вечность. Исследование мифологии в «Эраносе». – Москва:Касталия. – 2018. –340s.
4. Bowers, M.A. Magic(al) Realism. Routledge. –2004, –160p.
5. Chanady, A.B. Magical Realism and the Fantastic. Routledge. –2019. –198p.
6. Moorcock, M. Count Brass. Mayflower Books. –2000, –140p.
7. Perez, R. Chevalier, V.A. The Palgrave Handbook of Magical Realism in the Twenty-First Century. Palgrave Macmillan. – 2020. – 671p.
8. Villarreal, V.A. Magical/Realism: Essays on Music, Memory, Fantasy, and Borders. Tiny Reparations Book. –2004. – 384p.
9. Zamora, L.P., Faris, W.B. Magical Realism: Theory, History, Community. –Duke University Press Books. –1995, –592p.

**Джошгун Дадаш оглу ДАДАШОВ**
*Азербайджанский университет языков*
*кафедра зарубежной литературы, докторант*
*E-mail:* Dadasov94@mail.ru

## ДВОЙНАЯ РЕАЛЬНОСТЬ И ПУТЕШЕСТВИЯ ВО ВРЕМЕНИ В ТВОРЧЕСТВЕ М. МУРКОКА

**Резюме**

Если чудо, магия находятся в таинственной среде, вдали от обычной, повседневной жизни, то английский писатель М. Муркок помещает магию в центр повседневности, с этой точки зрения его чудо кажется более загадочным. Переплетение реальности и фантазии создает в романах М. Муркока особый эффект, оно вписывается в общий поток жизни. Одной из главных особенностей магического реализма является существование в произведениях двух миров. В произведениях М. Муркока, относящихся к магическому реализму, понятие времени описывается своеобразно, время как бы исчезает или теряет свои временные границы. Герои произведений легко перемещаются во времени. В таких произведениях нарушаются все законы реального мира, мифологическое время превращается в реальную историю и постоянно повторяется. В связи с этим многие произведения М. Муркока, основанные на магическом реализме, живут по своим собственным законам, разворачиваются в свете нереальных и невообразимых событий.

**Ключевые слава:** М.Муркок, «Граф Брасс», двойная реальность, роман

**Joshgun Dadash DADASHOV**
*Azerbaijan University of Languages*
*Department of Foreign Literatur, Ph.D. student*
*E-mail: Dadasov94@mail.ru*

## DUAL REALITY AND TIME TRAVEL IN M. MOORCOCK'S CREATIVITY

**Abstract**

While the miracle, magic is located in a mysterious environment, away from ordinary, everyday life, the English writer M. Moorcock places magic in the middle of everyday life, from this point of view his miracle seems more mysterious. The interpenetration of reality and imagination creates a special effect in M. Moorcock's novels, it fits into the general flow of life. One of the main features of magic realism is the existence of two-worlds in the works. In the works of M. Moorcock, relating to magic realism, the concept of time is described in a peculiar way, time seems to disappear or lose its temporal boundaries. The heroes of the work easily move through time. In such works, all the laws of the real world are violated, mythological time turns into real history and constantly repeats itself. In this regard, many works by M. Moorcock, based on magical realism, live according to their own laws, unfold in the light of unreal and unimaginable events.

**Keywords:** M.Moorcock, “Count Brass”, dual reality, novel

**Daxil olub:** 11.01.2024